# Azərbaycanın idman şöhrəti ölkəmizin nüfuzunun artmasında önəmli rol oynayır

***İdman sahəsində əldə edilmiş uğurlar, bayrağımızın qaldırılması, himnimizin səsləndirilməsi vətənpərvərlik hisslərini daha da gücləndirirdi və hər birimizə bir daha göstərirdi ki, əgər biz idman yarışlarında düşməni təmsil edən idmançıları məğlub edə biliriksə, döyüş meydanında da mütləq qələbə qazanacağıq. Belə də oldu.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

***Respublikamızın idman sahəsində əldə etdiyi uğurlar aparılan məqsədyönlü siyasətin, düşünülən proqramın inamla reallaşdırılmasının məntiqi nəticəsidir. Prezident İlham Əliyev Macarıstanda keçirilmiş Güləş üzrə Avropa çempionatında iştirak edən Azərbaycan millisinin üzvlərini qəbul edərkən, Budapeştdə reallaşan yarışda idmançılarımızın bir daha xalqımızı sevindirdiklərini, böyük qələbə ilə Vətənə qayıtdıqlarını, əldə etdikləri 16 medalla respublikamızın idman şöhrətini bir qədər də yüksəklərə qaldırdıqlarını bildirib. Dövlətimizin başçısı daha sonra deyib: "Bu medalların birini qadın idmançımız qazandı, qalanlarını isə sərbəst güləş və yunan-Roma güləşi üzrə komandalarımız. Beləliklə, həm sərbəst güləş, həm yunan-Roma güləşi üzrə komandalarımız Avropada birinci oldular. Bu, böyük qələbədir, böyük nailiyyətdir. Avropada birinci olmaq, istənilən idman növündə birinci olmaq böyük uğur hesab edilə bilər. Əlbəttə ki, bir daha Azərbaycan güləşçilərimiz bizim güləşimizi təbliğ etmişlər, çünki güləş bizim ənənəvi idman növümüzdür. Güləşin çox böyük ənənələri vardır və bu ənənələr yaşayır".***



Ölkə rəhbəri Azərbaycanda idmanın bütün növlərində, o cümlədən güləşdə rəqabətin ildən-ilə artdığını, müxtəlif ölkələrdə keçirilən yarışlarda güclü idmançılarımızın üzə çıxdığını vurğulayaraq, bu sahədə yüksək mübarizə şəraitinin mövcud olduğu Avropada yüksək nəticələr qazanmağı böyük nailiyyət kimi dəyərləndirib.

Prezident İlham Əliyev daha sonra bir müddət bundan əvvəl elə bu otaqda gənc güləşçilərlə görüşü zamanı onlara yarışa çıxanda müzəffər ölkəni və qalib xalqı təmsil etdiklərini unutmamalarını bildirdiyini xatırladıb. Ölkə rəhbəri söhbətində həmin vaxt onları gənclər arasında Avropa çempionatında birinci yerlə bağlı ürəkdən təbrik edərkən, gələcəkdə Azərbaycanı yenidən sevindirəcəklərinə əminliyini diqqətə çatdırdığını vurğulayıb və böyüklər arasındakı yarışlarda uğurlu nəticələr qazanmağın önəmini bildirib: "Həm gənclər, həm böyüklər arasında Avropada birinci yeri tutmaq bir daha demək istəyirəm ki, böyük nailiyyətimizdir və onu göstərir ki, güləşdəki ənənələrimiz yaşayır və güclü gənc nəsil yetişir. Böyüklər arasında biz öz gücümüzü hər dəfə təsdiqləyirik, ölkəmizin idman şöhrəti və bütövlükdə ölkəmizin nüfuzu artır".

***(ardı 3-cü səhifədə)***

# Azərbaycanın idman şöhrəti ölkəmizin nüfuzunun artmasında önəmli rol oynayır

*(əvvəli 1-ci səhifədə)*

Dövlətimizin başçısı hər zaman çıxışlarında Azərbaycanda güləşin idmanın bütün növləri arasında xüsusi yer tutduğunu, milli idman növü olaraq daim diqqətdə saxlanıldığını, ölkəmizin bütün dövrlərdə – istər sovet, istərsə də müstəqillik illərində həm də güclü güləşçilərimizlə tanındığını diqqətə çatdırıb. Eyni zamanda, güləşçilərimizin respublikamızı müxtəlif yarışlarda ləyaqətlə təmsil etdiklərini, idmanın bu sahəsində bir çox Olimpiya, dünya, Avropa çempionumuzun olduğunu bildirib. Prezident İlham Əliyev belə bir halın obyektiv səbəbdən irəli gəldiyini, ölkəmizdə kifayət qədər güclü güləş ənənələrinin indiki gənc nəsil tərəfindən şərəflə qorunduğunu deyib.

Dövlətimizin başçısı böyüklər arasında keçirilən çempionatda idmançılarımızın da eyni fikirlə, eyni duyğu ilə yarışlara çıxdıqlarına və bu zaman yüksək məsuliyyət hissi keçirdiklərinə əminliyini ifadə edib. Belə bir halın isə təsadüfi olmadığını vurğulayan ölkə rəhbəri bunu cəmi 44 gün ərzində böyük tarixi qələbə qazanan xalqı təmsil etmək, bundan həm böyük qürur hissi keçirmək, həm də böyük məsuliyyət daşımaq kimi amillər şərtləndirdiyini bildirib.

Həqiqətən, dövlətimizin başçısının dediyi kimi, idmanın inkişafı və idman nailiyyətləri təkcə ölkəmizi dünyada təbliğ etmir, gücümüzü göstərmir, eyni zamanda, cəmiyyətdə vətənpərvərlik hisslərini gücləndirir. Məhz vətənpərvərlik, Vətənə olan sədaqət, fədakarlıq Azərbaycan Ordusunu Qarabağın azad olunması uğrunda müharibədə irəliyə apardı və parlaq qələbə qazandı.

Bax, elə buna görə də dövlətimizin başçısının qeyd etdiyi kimi, Azərbaycan dövləti gənc nəslin vətənpərvərlik ruhunda, milli ruhda, milli dəyərlər əsasında tərbiyə almaları üçün üçün bütün imkanlardan səmərəli istifadə edir. Azərbaycan gəncliyi də məhz bu yöndə yetişir, Vətəni ləyaqətlə təmsil edir, öz əməyi, fədakarlığı ilə ölkəmizi gücləndirir. Məhz bu reallıq nəticəsində Azərbaycan hazırda beynəlxalq aləmdə sürətlə inkişaf edən ölkə kimi tanınır, dünyada nadir ölkələrdəndir ki, öz taleyini özü həll edir, müəyyənləşdirir, öz siyasətini müstəqil şəkildə aparır və istər döyüş meydanında, istərsə də siyasi arenada parlaq qələbə qazanır.

Prezident İlham Əliyev hər zaman idmançılarımızın sosial şəraitinin yaxşılaşmasını diqqət mərkəzində saxlayıb və onlara bu sahəyə prioritet istiqamət kimi yanaşılmasının dövlət siyasəti olduğunu bildirib, gənclərə ölkəmizi dünyada ləyaqətlə təmsil etmələrinin zəruriliyini çatdırıb. Məhz elə buna görə də beynəlxalq idman qurumları tərəfindən Azərbaycana hər zaman böyük rəğbətlə yanaşılıb. Bunun məntiqi nəticəsidir ki, respublikamızda indiyədək dünya səviyyəli iki tədbir–Avropa Oyunları və İslam Həmrəyliyi Oyunları keçirilib. Təkcə bu fakt, yəni bir ölkədə, bir şəhərdə cəmi iki il ərzində iki böyük tədbirin gerçəkləşdirilməsi beynəlxalq idman ictimaiyyətinin, federasiyaların Azərbaycana olan münasibəti kimi dəyərləndirilib.

Dövlətimizin başçısı idmanın kütləviliyinin təmin edilməsi, bütün bölgələrdə mövcud infrastrukturdan səmərəli istifadəsinin vacibliyi, bu sahədə istedadlı uşaqların seçilib onlara qayğı, diqqət göstərilməsi, habelə ölkəmizdə bundan sonra reallaşacaq beynəlxalq yarışların davamlı xarakter alması üçün daim müvafiq qurumlara tövsiyə və tapşırıqlar verib: "Çünki ölkəmizin həm imkanları, həm Azərbaycanda qonaqpərvərlik, idman infrastrukturunun mövcudluğu sayəsində biz bütün istənilən idman yarışını keçirə bilərik. Məsələn, Avropa Oyunlarında 5 mindən çox idmançı iştirak edirdi və onların bir çoxu qeyd edirdi ki, bu Oyunlar Yay Olimpiya Oyunlarının səviyyəsində keçirilir. Yəni, bütün bu şəraiti biz yaratmışıq ki, həm idmançılar dövlətimizin şöhrətini həmişə yüksəkliklərdə saxlasınlar, həm də idman kütləvi xarakter alsın...".

Ölkə rəhbəri söhbət zamanı güləşin Azərbaycanda ən populyar, ən məşhur idman növü olduğunu, buna görə də həm məşqçilər, həm idman federasiyasının nümayəndələri, Gənclər və İdman Nazirliyi bu amili nəzərə alaraq sözügedən sahəyə xüsusi diqqət vermələrinin zəruriliyini bir daha diqqətə çatdırıb: "Əminəm ki, gələcək yarışlarda biz, əlbəttə, birinci sıralarda olacağıq. Gələcək yarışlara gəldikdə isə iki ildən sonra Yay Olimpiya Oyunları keçiriləcək. Vaxt az qalıb və hesab edirəm ki, nəinki güləş, eyni zamanda, bütün idman növlərində lisenziya qazanacaq idmançılar bu əsas yarışa indidən hazırlaşmalıdırlar, düzgün təlim-məşq toplanışları, yarışlar müəyyən edilməlidir. Əminəm ki, belə də olacaq və Yay Olimpiya Oyunlarında da biz bir daha ölkəmizin gücünü, idman gücünü göstərəcəyik...".

Burada onu da xatırladaq ki, dövlətimizin başçısı Güləş Federasiyasının fəaliyyətini daim diqqət mərkəzində saxlayır. Ölkə rəhbəri bir müddət bundan əvvəl çıxışlarının birində son vaxtlar Güləş Federasiyasında gedən proseslərin narahatlıq doğurduğunu, bu qurumda durğunluq hiss olunduğunu, bir sözlə, adı çəkilən federasiyada idarəetmə mexanizminin zəiflədiyini, faktiki olaraq özbaşınalıq hökm sürdüyünü də vurğulamışdı. Ölkə rəhbərinin bildirdiyi kimi, əlbəttə, bu, idman nəticələrinə də mənfi təsir göstərmişdi. Belə bir xoşagəlməz meylin qarşısının alınması məqsədilə artıq Güləş Federasiyasının rəhbərliyi dəyişdirilib. Bu isə, şübhəsiz ki, federasiyada həm buraxılmış bütün nöqsanların aradan qaldırılmasını, həm də idmançılara lazımi şərait yaradılmasını şərtləndirib. Təbii ki, bu məsələdə dövlətimizin başçısının tövsiyə və tapşırıqları da qarşıya mühüm vəzifə kimi qoyulub. Bax, bu gün gələcəkdə güləş idman növündə daha böyük uğurlar əldə ediləcəyi, Güləş Federasiyası ilə Gənclər və İdman Nazirliyinin birgə fəaliyyətinin daha səmərəli olacağı əminliyi də buradan yaranıb.

Azərbaycan Prezidenti söhbətində diqqətçəkən bir məqama da toxunub. Dövlətimizin başçısı idmançılarımızın indiyədək olduğu kimi, bundan sonra da ölkəmizi ləyaqətlə təmsil edəcəklərinə əminliyini bildirib. Ölkə rəhbəri Budapeşt səfəri zamanı keçirilən çempionatın gedişatına nəzər yetirirərkən, ən çətin anlarda rəqibin cığallığı, nalayiq hərəkətləri qarşılığında idmançılarımızın öz gücü ilə qaydalar çərçivəsində rəqibi yerinə oturda bildiklərini qürurla diqqətə çatdırıb: "Buna fikir verərkən yenə də İkinci Qarabağ müharibəsindəki hadisələr yadıma düşdü, o vaxt da mənfur düşmən döyüş meydanında məğlub olarkən, qaçarkən, 10 min fərari verərkən ən çirkin əməllərə əl atmışdı, ən çirkin əməllərə. Dinc insanlara qarşı terror əməllərinə əl atmışdır. Bizim şəhərlərimiz, dinc şəhərlərimiz gecə vaxtı ballistik raketlərlə atəşə tutuldu, 100-dən çox dinc insan, onların arasında uşaq, qadın, yaşlı insan bu namərd atəş nəticəsində həlak oldu. Amma mən o vaxt demişdim, hələ müharibə gedə-gedə demişdim ki, biz ermənilərin əməllərini heç vaxt təkrar etməyəcəyik. Biz düşmənə döyüş meydanında cavab verəcəyik. Elə cavab verəcəyik ki, onlar əbədi bu dərsi yadda saxlasınlar...".

Bəli, Azərbaycan Vətən müharibəsində öz ləyaqətini, insanpərvərliyini nümayiş etdirdi. Halbuki xalqımızda düşmənə qarşı dərin nifrət hissi var idi. Çünki işğalçı tərəfindən ölkəmizə qarşı soyqırımı törədilmişdi, etnik təmizləmə siyasəti aparılmışdı və qisas hissinin olması təbii idi. Ancaq Azərbaycan düşməndən intiqamı döyüş meydanında aldı, savaşı müharibə qanunlarına uyğun həyata keçirdi, özünü mübarizədə ləyaqətlə apardı, düşmən tərəfində mülki əhali arasında itkilər 30-dan da az oldu.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 10 aprel.- S.1;3.